AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Əli Rasim oğlu Abdullazadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Aqrar iqtisadiyyat və turizm işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Mübariz Məmmədhüseyn oğlu Bağırov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
Anar Fazil oğlu Abbasov

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Mahir Həmzə oğlu Zeynalov

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Müşfiqə Əjdər qızı Məmmədova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
Ziyad Əliabbas oğlu Səmədzadə

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Samirə Yaşar qızı Məmmədova

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
Səbinə İzzət qızı Vəliyeva

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. İqtisadiyyatın struktur səviyyəsi və inkişaf potensialı, hər bir ölkədə olduğu kimi, onu təşkil edən sahələrin inkişaf dərəcəsi ilə müəyyən olunur. Sahələrin səmərəlilik göstəriciləri isə bilavasitə dövlətin iqtisadi siyasətinin prioritet istiqamətləri, tətbiq olunan tənzimləmə mexanizmləri və institusional mühitin keyfiyyəti ilə şərtlənir. Bu baxımdan, ayrı-ayrı sahələrin inkişafı ilə yanaşı, onların qarşılıqlı əlaqədə və balanslı şəkildə formalaşması dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən və sosial-iqtisadi dayanıqlığın təminində əsas rol oynayan sahələrdən biri qida sənayesidir. Bu sahə özünün spesifik xüsusiyyətləri ilə seçilməklə yanaşı, əhalinin gündəlik ərzaq tələbatının ödənilməsi və qida təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Məhz bu xüsusiyyətlər qida sənayesinin davamlı inkişafının dövlət səviyyəsində prioritet istiqamət kimi müəyyən edilməsini zəruri edir.

İqtisadiyyatın hər hansı bir sahəsində sabit və dayanıqlı inkişafın təmin edilməsi, ilk növbədə, həmin sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin dayanıqlılıq potensialından asılıdır. Müəssisələrin iqtisadi, maliyyə və institusional baxımdan davamlı fəaliyyət göstərə bilməsi, bütövlükdə sahənin inkişaf dinamikasını və rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biridir. Bu kontekstdə qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsi həm sahəvi, həm də makroiqtisadi səviyyədə tarazlı və uzunmüddətli iqtisadi artımın əsas şərtlərindən biri kimi çıxış edir. Qida sənayesi iqtisadiyyatda müsbət struktur dəyişikliklərini stimullaşdıran əsas sahələrdən biri kimi çıxış edir. Bu sahə əhalinin ərzaqla təminatı, kənd təsərrüfatının inkişafı, məşğulluğun artırılması, ixrac imkanlarının genişlənməsi və innovativ texnologiyaların tətbiqi baxımından mühüm rol oynayır. Lakin qeyd olunan üstünlüklərin reallaşdırılması bilavasitə qida sənayesi müəssisələrinin səmərəli və dayanıqlı fəaliyyətindən asılıdır. Bu baxımdan, müəssisələrin dayanıqlı inkişafının təmin edilməsi onların rəqabət qabiliyyətinin yüksəldilməsi və uzunmüddətli artımının əsas şərtlərindən biri kimi çıxış edir.

Bazar iqtisadiyyatı şəraitində müəssisələrin dayanıqlılığı kapital

təminatı, istehsal resursları, insan kapitalı və səmərəli idarəetmə mexanizmləri ilə şərtlənir. Eyni zamanda, strateji planlaşdırma və bazar mühitinin adekvat təhlili dayanıqlı inkişafın təminində həlledici rol oynayır. Bu amillərin uzlaşdırılması müəssisələrin həm mikro, həm də makro səviyyədə iqtisadi sabitliyə töhfəsini artırır.

Azərbaycan Respublikasında qida sənayesinin inkişafı dövlət səviyyəsində prioritet istiqamət kimi müəyyən edilmişdir. Belə ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda aqrar emal sənayesinin inkişafı, müasir emal müəssisələrinin yaradılması, logistik infrastrukturun genişləndirilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi əsas hədəflər kimi müəyyən olunmuşdur[1]. Bununla yanaşı, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun, o cümlədən qida sənayesinin rəqabət qabiliyyətinin artırılması istiqamətində orta və uzunmüddətli inkişaf prioritetlərini müəyyən etmişdir [2]. Bununla belə, aparılan təhlillər göstərir ki, Azərbaycanda qida sənayesinin inkişafında bir sıra sistemli problemlər mövcuddur. Bunlara istehsalın texnoloji səviyyəsinin qeyri-bərabərliyi, xammal bazasının qeyri-sabitliyi, logistika və saxlama infrastrukturunun yetərincə inkişaf etməməsi, kiçik və orta müəssisələrin maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu, həmçinin innovasiya və keyfiyyət standartlarının tətbiqində çətinliklər aid edilə bilər. Bu problemlər sahənin dayanıqlı inkişaf potensialını məhdudlaşdırır və dövlət tərəfindən müəyyən edilmiş strateji hədəflərin tam reallaşdırılmasını çətinləşdirir. Eyni zamanda, qida təhlükəsizliyinin təmin olunması istiqamətində institusional mexanizmlər formalaşdırılmış və bu sahədə dövlət nəzarəti gücləndirilmişdir. Lakin mövcud çağırışlar göstərir ki, qida sənayesi müəssisələrinin dayanıqlı inkişafının kompleks şəkildə tədqiqi, mövcud problemlərin elmi

[1] Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" https://e-qanun.az/framework/41320

[2] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı https://e-qanun.az/framework/57112

əsaslarla qiymətləndirilməsi və səmərəli inkişaf istiqamətlərinin müəyyən edilməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, "Qida sənayesi müəssisələrindiə dayaniqli inkişafin təmin edilməsi istiqamətləri" mövzusunda elmi tədqiqatın aparılması həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir.

Qida sənayesi müəssisələrində dayanıqlı inkişafin təmin edilməsi, onun mahiyyəti və metodoloji əsasları, eləcə də beynəlxalq təcrübə məsələləri uzun müddətdir ki, tədqiqatçıların diqqət mərkəzindədir və bu istiqamətdə elmi araşdırmalar davam etməkdədir. Problemin müxtəlif tərəfləri Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, A.F.Abbasov, R.Ə.Balayev, M.C.Hüseynov, H.A.Xəlilov, E.R.İbrahimov, İ.H.İbrahimov, E.Ə.İbrahimov, N.C.Qafarov, Ə.Ç.Verdiyev, Ş.M.Əlicanova, F.M.Səfərova və digər müəlliflərin əsərlərində geniş şəkildə tədqiq edilmişdir.

Xarici tədqiqatçılardan M. Porter, V.V. Kovalev, V.M. Radionova, M.A. Fedotova, F. Praasterinq, Qorbaşko, V.P. Tretyak, Q.Q. Fetisova, Q.A. Bağıyev və başqalarının əsərlərində qida sənayesi müəssisələrinin dayanıqlılığı ilə bağlı müxtəlif yanaşmalar irəli sürülmüşdür.

Qeyd olunan müəlliflərin əsərlərində problemin ayrı-ayrı istiqamətləri geniş şəkildə işıqlandırılsa da, qloballaşma proseslərinin qeyri-bərabər və tam formalaşmamış xarakteri hər bir ölkədə olduğu kimi, Azərbaycan iqtisadiyyatında da qida sənayesi müəssisələrində dayanıqlı inkişaf məsələlərinə yenidən və kompleks yanaşmanı zəruri edir. Bu isə problemin vahid metodoloji əsasda daha dərindən öyrənilməsini şərtləndirir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycanın qida sənayesi müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətidir. Tədqiqatın predmetini isə bu müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsi prosesi, həmin prosesdə tətbiq olunan idarəetmə yanaşmaları və iqtisadi mexanizmlər təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi qida sənayesi müəssisələrində dayanıqlı inkişafın nəzəri-metodoloji əsaslarını araşdırmaq, mövcud vəziyyəti təhlil etmək və bu istiqamətdə elmi əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdır. Qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- qida sənayesi müəssisələrində dayanıqlı inkişafın iqtisadi mahiyyətini və nəzəri əsaslarını müəyyənləşdirmək;
- müəssisə səviyyəsində dayanıqlı inkişafın metodoloji aspektlərini araşdırmaq;
- qida sənayesi müəssisələrində dayanıqlılığın təmin edilməsinin beynəlxalq təcrübəsini təhlil etmək və ümumiləşdirmək;
- Azərbaycanda sahibkarlıq mühitinin və makroiqtisadi amillərin müəssisələrin dayanıqlılığına təsirini qiymətləndirmək;
- qida sənayesi müəssisələrində mövcud dayanıqlılıq səviyyəsini təhlil etmək;
- müəssisələrin dayanıqlılıq səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilər sistemini formalaşdırmaq;
- qida sənayesi müəssisələrində dayanıqlı inkişafın əsas istiqamətlərini müəyyən etmək;
- müəssisələrin maliyyə dayanıqlığının idarə edilməsinin təkmilləşdirilməsi mexanizmlərini əsaslandırmaq;
- dayanıqlı inkişafın təmin edilməsi üzrə praktiki tövsiyələr və tətbiq mexanizmlər hazırlamaq;

Tədqiqat metodları. Tədqiqat zamanı müşahidə, ümumiləşdirmə, iqtisadi-statistik təhlil, müqayisəli təhlil, dinamik təhlil, həmçinin təhlil və sintez metodlarından istifadə edilmişdir. Araşdırmanın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi hesabat və məcmuələri, tədqiqat obyekti olan iqtisadi subyektlərin illik hesabatları, elmi-nəzəri və elmi-praktiki konfrans materialları, habelə internet resursları və digər elmi mənbələr təşkil edir. Tədqiqatın nəzəri-metodoloji bazasını azərbaycanlı və xarici ölkə alimlərinin, tanınmış iqtisadçıların müəssisələrdə dayanıqlılığın təmin olunmasına dair tədqiqatları, Azərbaycan Respublikası Prezidentinin problemə dair Fərman və Sərəncamları, Nazirlər Kabinetinin qərarları, Milli Məclisin qəbul etdiyi qanunlar və digər normativ-hüquqi sənədlər təşkil edir.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqat zamanı ümumiləşdirilən və müdafiəyə təqdim edilən əsas müddəalar aşağıdakılardan ibarətdir:

- qida sənayesi müəssisələrində dayanıqlığın təmin edilməsinə dair beynəlxalq təcrübənin zaman-zaman ümumiləşdirilməsi və

Azərbaycan şəraitinə uyğunlaşdırılması imkanlarının üzrə çıxarılması vacib hesab edilir;

- sahibkarlıq mühiti və makroiqtisadi amillərin qida sənayesi müəssisələrinin dayanıqlılığına təsirinin kompleks şəkildə qiymətləndirilməsinə ehtiyac vardır;
- qida sənayesi müəssisələrində dayanıqlığın qiymətləndirilməsi üçün göstəricilər sisteminə əsaslanan elmi yanaşma formalaşdırılmalıdır;
- qida sənayesi müəssisələrinin dayanıqlıq səviyyəsi müntəzəm təhlil edilməli və bu əsasda inkişaf meylləri müəyyən edilməlidir;
- yeni reallıqlar və çağırışlar nəzərə alınmaqla dayanıqlı inkişafın təmin edilməsinin prioritet istiqamətləri diqqət mərkəzində saxlanılmalıdır;
- müəssisələrin maliyyə dayanıqlığının idarə edilməsi üzrə təkmilləşdirilmiş elmi yanaşmalar və tətbiqi tövsiyələr mütəmadi olaraq işlənməlidir.

Tədqiqatın elmi yeniliyi. Aparılmış tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- qida sənayesi müəssisələrində dayanıqlı inkişafın iqtisadi mahiyyəti açıqlanaraq sistemləşdirilmiş və onun müəssisə fəaliyyətində rolu daha dəqiq konseptual əsasda araşdırılmışdır;
- dayanıqlığın təmin edilməsinə dair mövcud yanaşmalar sistemləşdirilərək kompleks metodoloji çərçivədə təqdim olunmuşdur;
- qida sənayesi müəssisələrinin maliyyə dayanıqlığının qiymətləndirilməsi üçün göstəricilər sisteminə əsaslanan inteqral yanaşma təklif edilmişdir;
- Azərbaycanda qida sənayesi müəssisələrinin dayanıqlılığına təsir edən makroiqtisadi və institusional amillər sistemli şəkildə əlaqələndirilərək qiymətləndirilmişdir;
- dayanıqlı inkişafın təmin edilməsində mərhələli idarəetmə və prioritetləşdirmə prinsiplərinə əsaslanan konseptual inkişaf modeli irəli sürülmüşdür;
- müəssisələrin maliyyə dayanıqlığının idarə olunması üzrə

təkmilləşdirilmiş nəzəri-metodoloji və tətbiqi mexanizmlər hazırlanmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Aparılmış tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada əldə olunan nəticələr və yeni elmi-konseptual yanaşmalar gələcəkdə bu mövzu ətrafında aparılacaq araşdırmalar üçün etibarlı mənbə ola bilər.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, irəli sürülən təkliflər və tövsiyələr müəssisələrin idarə olunmasında geniş şəkildə tətbiq oluna bilər. Bundan əlavə, tədqiqat materialları ali təhsil müəssisələrində "Maliyyə", "Korporativ maliyyə", "Menecment", "Müəssisənin iqtisadiyyatı", "Müəssisələrin idarə olunması" və digər müvafiq fənlərin tədrisi prosesində istifadə edilə bilər. Bununla yanaşı, tətbiqi xarakter daşıyan tədqiqat materialları tədqiq olunan problemə dair proqramların və məqsədli strateji layihələrin hazırlanmasında da faydalı ola bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 5 məqalədə (1-i xaricdə olmaqla) və 3 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Конкурентоспособность как основа устойчивого развития предприятия" (Тольятти, 2025), "Müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsinin müasir meyilləri" (Bakı, 2025), "Qida sənayesinin davamlılığının iqtisadi inkişafa təsiri istiqamətləri" (Gəncə, 2025) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Qida sənayesi müəssisələrində rəqabət qabiliyyətlik səviyyəsini müəyyən edən mühitin təhlili" (Bakı, 2025), "Qida sənayesi müəssisələrində dayanıqlığın yüksəldilməsi amilləri" (Bakı, 2025), "Qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin dünya təcrübəsi" (Bakı, 2025), "Müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsinin nəzəri məsələləri" (Bakı, 2025), "Направления обеспечения устойчивого развития предприятий пищевой промышленности" (Москва, 2025) adlı məqalələri dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı: Azərbaycan Kooperasiya Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Tədqiqat işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (11592 işarə), I fəsil (58726 işarə), II fəsil (86544 işarə), III fəsil (67559 işarə), nəticə (11683 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (17201 işarə) üzrə ümumi həcm 275685 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla, 236104 işarədir.

TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin birinci fəslində qida sənayesi müəssisələrində dayanıqlı inkişafın nəzəri və metodoloji əsasları araşdırılmışdır. Bu fəsildə dayanıqlı inkişafın iqtisadi mahiyyəti və nəzəri əsasları, müəssisə səviyyəsində dayanıqlıq və dayanıqlı inkişafın metodoloji əsasları, həmçinin qida sənayesi müəssisələrində dayanıqlığın təmin edilməsinin beynəlxalq təcrübəsi ətraflı öyrənilərək təhlil edilmişdir.

Tədqiqatın bu bölməsində dayanıqlı inkişaf anlayışının iqtisadi mahiyyəti sistemli şəkildə araşdırılmışdır. Müəyyən edilmişdir ki, dayanıqlı inkişaf müəssisələrin uzunmüddətli dövrdə iqtisadi səmərəlilik, sosial məsuliyyət və ekoloji tarazlıq prinsipləri əsasında fəaliyyətini təmin edən kompleks yanaşma olub, yalnız iqtisadi artımın davamlılığını deyil, eyni zamanda resurslardan səmərəli istifadəni və gələcək nəsillərin maraqlarının qorunmasını da nəzərdə tutur. Bu konsepsiyanın nəzəri kökləri Porterin rəqabət nəzəriyyəsi,[3]

[3] Портер, М. Конкуренция П.Майкл. / М.Портер – СПб; Издательский дом. Вильяме, –2012. – 464 стр.

Şumpeterin innovasiya nəzəriyyəsi[4], sənayenin təşkili nəzəriyyəsi və institusional yanaşmalarla sıx bağlı olduğu əsaslandırılmışdır.

Müəllif tərəfindən dayanıqlı inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün mövcud metodoloji yanaşmalar – indikativ yanaşma, inteqral indekslər metodu, dinamik normativlər metodu və ESG təhlili – sistemləşdirilmiş və onların üstünlükləri, habelə tətbiqi zamanı qarşılaşılan məhdudiyyətlər (informasiya təminatı çatışmazlığı, metodologiyaların uyğunsuzluğu, subyektivlik amili və dəyişməz xarakteri) təhlil edilmişdir.

Müəssisə səviyyəsində dayanıqlığın metodoloji əsasları çərçivəsində kapital dayanıqlığı, təşkilati dayanıqlıq, bazar dayanıqlığı, kommersiya dayanıqlığı, funksional dayanıqlıq, struktur dayanıqlıq və maliyyə dayanıqlığı kimi elementlər fərqləndirilmişdir. Maliyyə dayanıqlığının qiymətləndirilməsi üçün zəruri meyarlar sistemi formalaşdırılmış, dayanıqlığa təsir edən daxili və xarici amillərin təsnifatı verilmişdir (cədvəl 1).

Cədvəl 1.

Müəssisənin maliyyə dayanıqlığını formalaşdıran amillərin təsnifatı

Mikroiqtisadi amillər	Makroiqtisadi amillər
Kapital bazasının həcmi	Ölkədə iqtisadi mühitin vəziyyəti
Xüsusi vəsaitlərin həcmi	Dövlətin iqtisadi siyasətinin prioritetləri
Cəlb olunmuş vəsaitlərin həcmi	Siyasi vəziyyət
Aktivlərdən istifadənin nəticələri	Sahibkarlığın inkişafı üzrə dövlət siyasəti
Fəaliyyətin səmərəlilik nəticələri	Dövlətin investisiya siyasəti
Likvidlik normativlərinə riayət səviyyəsi	Maliyyə resurslarına əlçatanlıq
Rəqabətqabiliyyətlilik səviyyəsi	Rəqabət mühitinin vəziyyəti
Kredit qabiliyyəti səviyyəsi	

Mənbə: Cədvəl ayrı-ayri iqtisadi mənbələr üzrə aparılmış təhlil və araşdırmalardan əldə olunmuş məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

[4] Шумпетер, Й. А. Теория экономического развития / Й.А. Шумпетер– Монография, Экономика Издательство: «Директмедиа Паблишинг» 2008. 400 с. https://institutiones.com/download/books/1959-teoriya-ekonomicheskogo-razvitiya-shumpeter.html

Cədvəl 1-də müəssisənin maliyyə dayanıqlığını formalaşdıran amillərin təsnifatı verilmişdir. Təsnifata əsasən, amillər mikroiqtisadi və makroiqtisadi olmaqla iki əsas qrupa bölünür. Mikroiqtisadi amillərə kapital bazasının həcmi, xüsusi və cəlb olunmuş vəsaitlərin strukturu, aktivlərdən istifadənin nəticələri, fəaliyyətin səmərəlilik göstəriciləri, likvidlik normativlərinə riayət səviyyəsi, rəqabətqabiliyyətlilik və kredit qabiliyyəti daxildir. Makroiqtisadi amillər isə ölkədə iqtisadi mühitin vəziyyəti, dövlətin iqtisadi siyasətinin prioritetləri, sahibkarlığın inkişafi üzrə dövlət siyasəti, investisiya siyasəti, maliyyə resurslarına əlçatanlıq və rəqabət mühitinin vəziyyətini əhatə edir. Cədvəlin təhlili göstərir ki, müəssisələrin maliyyə dayanıqlığı həm daxili idarəetmə qərarlarından, həm də xarici iqtisadi mühitdən asılı olaraq formalaşır və bu amillərin qarşılıqlı əlaqədə təhlili dayanıqlılığın qiymətləndirilməsi üçün metodoloji baza rolunu oynayır.

Prof. B.X.Ataşovun yanaşmasına görə, regionların sənaye potensialı və elmi-texniki tərəqqinin səviyyəsi iqtisadiyyatın dayanıqlı inkişafını xarakterizə edən əsas keyfiyyət göstəricilərindən biri kimi çıxış edir[5]. Bu baxımdan dayanıqlı inkişaf yalnız makroiqtisadi göstəricilərlə deyil, həm də regional resurs potensialının səmərəli istifadəsi ilə sıx bağlıdır.

Sxemdə müəssisənin dayanıqlığına təsir edən amillərin təsnifatı əks etdirilmişdir. Təsnifata əsasən, amillər daxili və xarici olmaqla iki əsas qrupa bölünür. Daxili amillərə idarəetmə (korporativ idarəetmənin təşkili səviyyəsi, şəffaflıq, operativlik), maliyyə (kapital bazasının vəziyyəti, aktivlərin gəlirliliyi, cəlb olunmuş vəsaitlərin maya dəyəri), təşkilati (menecmentin təşkili, personalın hazırlıq səviyyəsi, daxili intizam, istehsal-texnoloji proseslərin təşkili), hüquqi (müəssisə daxili normativ baza) və fors-major amilləri (təbii fəlakətlər və gözlənilməz hadisələr) daxildir. Xarici amillər isə siyasi (hərbi konfliktlər, beynəlxalq münasibətlər, sərhədlərin bağlanması, siyasi tətillər), ümumiqtisadi (ÜDM dinamikası, inflyasiya, məşğulluq səviyyəsi, real sektorun inkişaf sürəti, idxal-ixrac dinamikası), təşkilati (dövlətin

[5] Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. (nəzəriyyə və praktika). Bakı, "Kooperasiya" nəşriyyatı. 2017. 536 s.



Sxem. Müəssisənin dayanıqlığına təsir edən amillərin təsnifatı.
Mənbə [21, s. 32][6]

iqtisadi subyektlərin fəaliyyətini tənzimləməsi, sahibkarlıq subyektlərinin yaradılması və idarə edilməsi), nəzarət (pul, valyuta, kredit, investisiya, vergi siyasəti vasitəsilə tənzimləmə) və hüquqi (makrosəviyyəli hüquqi tənzimləmə) amillərdən ibarətdir. Sxemdə verilmiş təsnifat əsasında aparılan təhlil göstərir ki, müəssisənin dayanıqlığı daxili və xarici amillərin kompleks qarşılıqlı təsiri nəticəsində formalaşır və bu təsnifat dayanıqlılığın idarə edilməsi üçün sistemli metodoloji baza rolunu oynayır.

Aparılan təhlillər göstərir ki, müəssisələrin maliyyə dayanıqlığının təmin olunması yalnız daxili idarəetmə mexanizmlərindən deyil, eyni zamanda dövlətin tətbiq etdiyi iqtisadi dəstək alətlərindən də əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan prof. R.Z.Hüseyn qeyd edir ki, güzəştli kreditlər hesabına rəqabətqabiliyyətli və

[6] Əlicanova, Ş.M. Müasir şəraitdə müəssisənin maliyyə dayanıqlığının idarə edilməsi və qiymətləndirilməsi: / iqtisad üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2022. – 156 s.

ixracyönümlü məhsullar istehsal edən KOB-ların inkişafı ölkənin həm daxili tələbatının ödənilməsində, həm də ixrac potensialının gücləndirilməsində mühüm rol oynayır[7].

Beynəlxalq təcrübənin təhlili zamanı Kanada, Almaniya, Türkiyə, Hollandiya və Rusiya Federasiyasının qida sənayesində dayanıqlığın təmin edilməsi modelləri müqayisəli şəkildə öyrənilmişdir. Müəyyən edilmişdir ki, Kanada modelində ixracyönümlü inkişaf və dövlət dəstəyi, Almaniya modelində institusional sabitlik və standartlaşdırma, Türkiyə və Hollandiya modellərində ekoloji və sosial komponentlərin inteqrasiyası, Rusiya modelində isə dövlət yönümlü tənzimləmə və idxal əvəzlənməsi əsas prioritetlər kimi çıxış edir. Aparılan təhlillər göstərir ki, qida sənayesində dayanıqlı inkişafın mühüm şərtlərindən biri emal müəssisələrinin sabit xammal təminatının formalaşdırılmasıdır. Bu baxımdan İ.H.İbrahimov qeyd edir ki, *hər bir kənd təsərrüfatı xammalı ilə fəaliyyət göstərən emal müəssisəsinin istehsal proseslərinin həyata keçirilməsi təminatla bağlıdır. Emal müəssisələrinin təşkili və dayanıqlı inkişafı ərazilərdə xammal ehtiyatının təsiri ilə formalaşır*[8]. Təhlil nəticəsində qida sənayesində maliyyə dayanıqlığının təmin olunmasının əsas istiqamətləri kimi dövlət dəstəyi mexanizmləri, ixrac potensialının genişləndirilməsi, innovasiyaların inteqrasiyası, təchizat zəncirinin dayanıqlığı və ekoloji-sosial prinsiplərin tətbiqi ümumiləşdirilmişdir.

Dissertasiya işinin ikinci fəslində qida sənayesi müəssisələrində dayanıqlığın qiymətləndirilməsi və mövcud vəziyyətin təhlili aparılmışdır. Bu fəsildə Azərbaycanda sahibkarlıq mühitinin və makroiqtisadi amillərin dayanıqlığa təsirinin və qida sənayesi müəssisələrində dayanıqlığın mövcud vəziyyətinin təhlili, həmçinin qida sənayesi müəssisələrində dayanıqlığın qiymətləndirilməsi metodikası və göstəricilər sistemi ətraflı öyrənilərək təhlil edilmişdir.

Tədqiqatın bu fəslində Azərbaycanda sahibkarlıq subyektlərinin təsnifat meyarlarının təkamülü təhlil edilmişdir (cədvəl 2).

---

[7] Hüseyn R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları, / R.Z. Hüseyn. Monoqrafiya, Bakı, "Avropa" nəşriyyatı. 2018. 408 s.

[8] İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı,/ İ.H. İbrahimov. Monoqrafiya, Bakı, "Printing Company"MMC. İSBN: 978-9952-445-37-7. -2016. 655 s.

Cədvəl 2.

Azərbaycanda kiçik, orta və iri sahibkarlıq subyektlərinin təsnifatlaşma meyarları

№	Təsnifatlaşma kateqoriyaları	Müəssisələrdə işçilərin orta sayı (nəfər)	İllik gəlir (manatla)
1	Kiçik müəssisələr	25 nəfərə qədər	200 min manata qədər
2	Orta müəssisələr	25 nəfərdən 125 nəfərə qədər	200 min manatdan 1 milyon 250 min manata qədər
3	İri müəssisələr	125 nəfər və yuxarı	1 milyon 250 min manat və daha çox

Mənbə: cədvəl AR Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli 556 saylı qərarındakı göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müəyyən edilmiş təsnifata əsasən kiçik müəssisələr 25 nəfərədək işçi sayı və 200 min manatadək illik gəlir, orta müəssisələr 25-125 nəfər işçi sayı və 200 min-1,25 mln manat illik gəlir, iri müəssisələr isə 125 nəfərdən yuxarı işçi sayı və 1,25 mln manatdan yuxarı gəlir meyarları ilə xarakterizə olunmuşdur.

Cədvəl 3.

Azərbaycanda sahibkarlıq subyektlərinin təsnifatlaşma meyarları

№	Təsnifatlaşma formaları	İşçilərin orta sayı (nəfər)	İllik gəlirin səviyyəsi (manatla)
1	Mikro	1-10 nəfərə qədər	200 min manata qədər
2	Kiçik	11-50 nəfərə qədər	200 min manatdan yuxarı, 3 milyon manata qədər
3	Orta	51-250 nəfərə qədər	3 milyon manatdan yuxarı, 30 milyon manata qədər
4	İri	251 nəfərdən yuxarı	30 milyon manatdan yuxarı

Mənbə: cədvəl AR Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli 556 saylı Qərarının materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2018-ci ildə qəbul edilmiş yeni təsnifat sistemi ilə (cədvəl 3) mikro müəssisələr (1-10 nəfər, 200 min manatadək), kiçik müəssisələr (11-50 nəfər, 3 mln manatadək), orta müəssisələr (51-250 nəfər, 30 mln

manatadək) və iri müəssisələr (251 nəfərdən yuxarı, 30 mln manatdan yuxarı) kimi dörd kateqoriya müəyyən edilmişdir. Bu dəyişikliklər beynəlxalq təcrübəyə uyğunlaşma və sahibkarlıq siyasətində ünvanlılıq prinsipinin gücləndirilməsi məqsədini daşıyır.

Qida sənayesi müəssisələrində dayanıqlığın mövcud vəziyyətinin təhlili göstərmişdir ki, 2020-2024-cü illər ərzində sektorda müəssisələrin ümumi sayı 487-dən 689-a yüksəlmişdir. Artım əsasən orta və kiçik sahibkarlıq subyektləri hesabına formalaşmış, qeyri-dövlət sektorunun payı isə 98%-dən yuxarı səviyyədə sabit qalmışdır. İstehsal həcmi 2020-ci ildə 3884,3 mln manatdan 2024-cü ildə 4996,7 mln manata yüksəlmiş, məşğulluq səviyyəsi 30,4 min nəfərdən 33,8 min nəfərə çatmış, orta aylıq əmək haqqı isə 489,8 manatdan 668,9 manata yüksəlmişdir. Xərclərin strukturunda material xərcləri aparıcı mövqedə qalmaqla (74%), əmək haqqı (13,3%) və amortizasiya (5,8%) xərclərinin payında tədrici artım müşahidə olunmuşdur. Hazır məhsul ehtiyatlarının sabit qalması istehsal və satış prosesləri arasında nisbi tarazlığın mövcudluğunu göstərir.

Müəssisə səviyyəsində dayanıqlığın qiymətləndirilməsi məqsədilə "Azərsun Holdinq" MMC-yə daxil olan beş müəssisə üzrə (Şəkər İstehsal Birliyi, Bakı Qida Yağ Fabriki, Qafqaz Konserv Zavodu, Sun Tea Çay Fabriki, Kənd Təsərrüfatı Məhsulları) 2020-2024-cü illəri əhatə edən təhlil aparılmışdır. Məhsul istehsalının məcmu həcmi 629,5 mln. manatdan 756,0 mln. manata, məcmu gəlirlər 687,5 mln. manatdan 766,8 mln. manata, məcmu mənfəət 31,5 mln. manatdan 48,6 mln. manata yüksəlmiş, vergi ödənişləri isə 118,6 mln. manatdan 134,2 mln. manata qədər artmışdır.

Tədqiqat çərçivəsində qida sənayesi müəssisələrində dayanıqlığın qiymətləndirilməsi üçün inteqral indeks yanaşmasına əsaslanan metodoloji model təklif edilmişdir. Model beş əsas göstəricini – istehsal həcmi, gəlirlər, mənfəət, vergi ödənişləri və əmək məhsuldarlığını – əhatə edir. Bu məqsədlə minimum-maksimum üsulundan istifadə olunaraq hər bir göstərici [0;1] intervalına gətirilmişdir.

$$I_i = \frac{X_i - X_{min}}{X_{max} - X_{min}}$$

Burada I_i– i-ci göstəricinin normallaşdırılmış qiyməti, X_i– faktiki göstərici, X_{min}və X_{max}isə müvafiq olaraq həmin göstəricinin minimum və maksimum qiymətləridir.

Normallaşdırılmış göstəricilər əsasında müəssisələrin ümumi dayanıqlıq səviyyəsinin qiymətləndirilməsi üçün aşağıdakı inteqral modeldən istifadə edilmişdir:

$$SI = w_1 I_{prod} + w_2 I_{rev} + w_3 I_{prof} + w_4 I_{tax} + w_5 I_{lab}$$

Burada SI– müəssisənin inteqral dayanıqlıq indeksi, I_{prod}– istehsal həcmini, I_{rev}– gəlirləri, I_{prof}– mənfəəti, I_{tax}– vergi ödənişlərini, I_{lab}– əmək məhsuldarlığını xarakterizə edən normallaşdırılmış göstəricilərdir, $w_i$isə müvafiq göstəricilərin çəkilərini ifadə edir.

Qiymətləndirmə nəticələrinin interpretasiyası üçün şkala təklif edilmişdir: 0.00-0.25 aşağı, 0.26-0.50 zəif, 0.51-0.75 orta, 0.76-1.00 yüksək dayanıqlıq səviyyəsi. Aparılan təhlillər göstərmişdir ki, seçilmiş müəssisələr üzrə bütün əsas göstəricilərdə artım müşahidə olunmuş, lakin əmək məhsuldarlığı üzrə müəyyən dalğalanmalar qeydə alınmışdır. Bu, qida sənayesində dayanıqlığın tam sabit deyil, idarə olunan dəyişkənlik modeli kimi formalaşdığını göstərir.

Dissertasiya işinin üçüncü fəsli "Qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin təkmilləşdirilməsi istiqamətləri" adlanır. Bu fəsildə qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin əsas istiqamətləri, müəssisələrin maliyyə dayanıqlığının idarə edilməsinin təkmilləşdirilməsi mexanizmləri, həmçinin dayanıqlı inkişafın təmin edilməsi üzrə praktiki tövsiyələr və tətbiq mexanizmləri araşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 iyul 2023-cü il tarixində keçirilmiş müşavirədəki çıxışında qeyd edilmişdir ki, ilin birinci yarısında ölkənin iqtisadi siyasətinin əsas prioritetləri dayanıqlı inkişafın təmin edilməsi, qeyri-neft sektorunun genişləndirilməsi və sosial-iqtisadi islahatların davam etdirilməsi olmuşdur. Eyni zamanda vurğulanmışdır ki, qeyri-neft sənayesində 6,5%, ümumilikdə qeyri-neft sektorunda isə 3%-dən çox artım qeydə alınmışdır [9].

[9] Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2023-cü il tarixli müşavirədəki çıxışı/ https://president.az/az/articles/view/60429

Tədqiqatın bu fəslində dayanıqlı inkişafın təmin edilməsinin əsas istiqamətləri iqtisadi, sosial, institusional və texnoloji amillərin qarşılıqlı təsiri kontekstində sistemləşdirilmişdir.

Kənd təsərrüfatı müəssisələrinin iqtisadi göstəricilərinin təhlilindən (cədvəl 4) aydın olmuşdur ki, 2020-2024-cü illərdə satışdan əldə edilən gəlirlər 637,3 mln. manatdan 1,36 mlrd. manata, ümumi mənfəət isə 104,0 mln. manatdan 312,9 mln. manata yüksəlmişdir. Heyvandarlıq sahəsində mənfəətin 548,5% artması bu sahənin yüksək inkişaf potensialını göstərir.

Cədvəl 4.

Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri (2020-2024)

	2020	**2021**	**2022**	**2023**	**2024**	**2024/ 2020, %-lə**
Mənfəət, min manat	132835	201836	319498	284586	337564	254
Zərər, min manat	28820	30638	9486	27160	24661	85.6
Ümumi mənfəət, min manat	104016	171197	310012	257425	312902	301.0
Satışdan əldə edilən gəlir, min manat	637351	794863	1104580	1243014	1360698	213.4
Bitkiçilikdə mənfəət (zərər (-), min manat	69321	127159	170174	126029	168593	243.2
Heyvandarlıqda mənfəət (zərər (-), min manat	27180	32557	113751	132731	149089	548.5
K/t ümumi məhsulu, (faktiki satış qiymətləri ilə), min manat	814426	988366	1172861	1633784	1318774	161.9

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

Qida sənayesində əsas məhsul qrupları üzrə istehsal dinamikasının təhlili (cədvəl 5) göstərir ki, əlavə dəyər yaradan məhsullar üzrə artım daha sabitdir: kolbasa məmulatlarında 24%, qaymaq və xamada 29,9%, şəkərdə 37,7% artım qeydə alınmışdır.

Cədvəl 5.

Azərbaycanın qida sənayesində əsas məhsul qrupları üzrə istehsalın dinamikası (2020-2024)

Məhsul qrupları	2020	2021	2022	2023	2024	2024/ 2020 %-lə
Kolbasa məmulatları, ton	25833,6	26669,3	29696,4	30227,4	32047,1	124.0
Qatılaşdırılmış süd, ton	6404,3	2011,2	3901,7	11155,1	9192,4	143.5
Qaymaq və xama, ton	7742,2	9126,0	8192,0	9047,5	10055,6	129.9
Pendir və kəsmik, ton	53472,6	59286,9	57904,0	55063,4	54999,6	102.8
Kərə yağı, min ton	25,8	27,0	25,9	27,0	29,0	112.4
Meyvə və tərəvəz konservləri, şirələri, min ton	186,7	216,1	237,8	234,4	222,2	119.0
Bitki yağları, min ton	75,1	72,9	67,9	56,4	57,9	77.1
Buğda unu, min ton	1842,9	1498,2	1365,1	1328,0	1363,7	74.0
Çörək, min ton	1294,6	1278,1	1245,9	1195,8	1196,8	92.4
Şəkər, qənd, min ton	246,5	340,6	379,9	287,1	339,5	137.7
Çay, min ton	10,6	10,2	12,0	11,6	12,4	117.0

Mənbə: *https://www.stat.gov.az/source/industry/*.

Bitki yağlarının istehsalında 22,9%, buğda ununun istehsalında isə 26% azalma müşahidə olunmuşdur ki, bu da istehlak strukturunda dəyişikliklər və idxal asılılığı ilə bağlıdır. Müəssisələrin maliyyə dayanıqlığının idarə edilməsinin təkmilləşdirilməsi mexanizmləri çərçivəsində korporativ dayanıqlılığın GZİT təhlili (cədvəl 6) aparılmışdır.

Təhlil göstərmişdir ki, korporativ dayanıqlılığın tətbiqi maliyyə resurslarından səmərəli istifadə, risklərin diversifikasiyası və bazarda etibarlılığın artması kimi güclü tərəflərə malikdir, eyni zamanda ilkin mərhələdə əlavə maliyyə xərcləri və idarəetmə strukturunun mürəkkəbləşməsi kimi zəif tərəflər də mövcuddur. Korporativ davamlılıq və maraqlı tərəflər nəzəriyyəsi əsasında müəssisələrin maliyyə dayanıqlığının gücləndirilməsi üçün inteqrativ yanaşma təklif edilmişdir.

Cədvəl 6.

Müəssisələrdə korporativ dayanıqlılığın GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• maliyyə resurslarından daha səmərəli istifadə imkanları; • risklərin diversifikasiyası və azaldılması; • bazarda etibarlılıq və imicin yüksəlməsi.	• ilkin mərhələdə əlavə maliyyə xərclərinin yaranması; • idarəetmə strukturunun mürəkkəbləşməsi; • dayanıqlılıq indikatorlarının ölçülməsində çətinliklər.
İmkanlar	**Təhlükələr**
• dövlət dəstəyi və stimullaşdırıcı mexanizmlər; • yeni investisiya mənbələrinə çıxış imkanları; • ekoloji və sosial məsuliyyətli məhsullara artan tələbat.	• bazar qeyri-müəyyənliyi və iqtisadi risklər; • normativ tələblərin sərtləşməsi; • resurs qiymətlərində dəyişkənlik.

Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Praktiki tövsiyələr və tətbiq mexanizmləri üç səviyyədə – makroiqtisadi, sektor və mikro səviyyədə – sistemləşdirilmişdir. Makroiqtisadi səviyyədə investisiya təşviqi mexanizminin təkmilləşdirilməsi (strateji emal meyarının əlavə edilməsi, "yaşıl emal" alt proqramının yaradılması), Qida Sənayesi üzrə Zəmanət Fondunun yaradılması, ərazi-istehsal klasteri modelinin tətbiqi və Rəqabət Məcəlləsinə "qida təhlükəsizliyi standartlarını pozaraq maliyyə üstünlüyü əldə etmə" halının haqsız rəqabət forması kimi daxil edilməsi tövsiyə edilir.

Sektor səviyyəsində "Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası"nın texniki, marketinq və tədqiqat komitələrindən ibarət yeni strukturda təşkili, dairəvi iqtisadiyyat prinsiplərinə əsaslanan tullantıların idarə olunması sisteminin ("Qida tullantılarından əlavə dəyər" proqramı) yaradılması və mərhələli sertifikatlaşdırma proqramının (ISO 22000, IFS Food, GLOBALG.A.P.) tətbiqi təklif edilir.

Mikro səviyyədə təklif olunan inteqral dayanıqlıq indeksi modelinin praktiki tətbiqi, xərclərin azaldılması və keyfiyyətin yüksəldilməsi prinsiplərinin tətbiqi ilə material xərclərinin

optimallaşdırılması, “işçi səhmdarlığı” və ya “mənfəət bölgüsü” sistemi vasitəsilə əmək məhsuldarlığının artırılması, həmçinin blokçeyn əsaslı məhsul izlənməsi sisteminin tətbiqi tövsiyə edilir. Təkliflərin həyata keçirilməsi üçün qısamüddətli (0-12 ay), orta müddətli (1-3 il) və uzunmüddətli (3-5 il) mərhələlərdən ibarət yol xəritəsi hazırlanmışdır. Təklif olunan mexanizmlərin tətbiqi nəticəsində qida sənayesində maliyyə dayanıqlığının artması, istehsal səmərəliliyinin yüksəlməsi, investisiya axınının, ixrac potensialının güclənməsi və regional inkişafın dəstəklənməsi gözlənilir.

NƏTİCƏ

Apardığımız tədqiqat nəticəsində müəyyən edilmişdir ki, dayanıqlı inkişaf müəssisənin iqtisadi, sosial, ekoloji və institusional komponentlərinin balanslaşdırılmış və qarşılıqlı əlaqədə fəaliyyətini ifadə edən kompleks kateqoriyadır. Maliyyə dayanıqlığı bu komponentlər arasında əsas rol oynayır, qalan komponentlər (texnoloji, təşkilati, sosial, ekoloji) sonda maliyyə dayanıqlığına tabe olur. Mövcud qiymətləndirmə metodları (indikativ yanaşma, inteqral indekslər, dinamik normativlər, ESG təhlili) sistemləşdirilmiş və onların tətbiq imkanları müəyyən edilmişdir.

1. Ayrı-ayrılıqda hər bir müəssisənin və eləcə də ümumi iqtisadiyyatın səmərəli şəkildə idarə olunması üçün dayanıqlığın təmin olunması ən vacib və zəruri şərtlərdən biridir. Dayanıqlığın təmin olunması özündə bir sıra vacib məsələləri, o cümlədən müəssisənin malik olduğu resursların rasional qaydada formalaşması və istifadə edilməsini, düzgün idarəetmənin təşkil olunmasını, vaxtında və keyfiyyətlə həyata keçirilən tənzimlənmənin reallaşdırılmasını, nəticələrin səmərəlilik səviyyəsinin yüksək olmasını və s. birləşdirir. Aparılan təhlil və araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, müəssisələrdə dayanıqlığın təmin olunmasına münasibətdə çoxsaylı, fərqli yanaşmalar mövcuddur. Lakin bu yanaşmaların müxtəlif olmalarına baxmayaraq onlar üçün ümumi xarakterik cəhətlər də mövcuddur. Həmin ümumi xarakterlərə aşağıdakılar aiddir: müəssisələrdə dayanıqlıq geniş anlama malik bir konsepsiyadır; bu konsepsiya özündə dayanıqlığın ayrı-ayrı aspektlərini birləşdirir;

həmin aspektlər arasında üzvi bağlılıq mövcuddur; bu bağlılıq fəaliyyət zamanı ayrı-ayrı aspektlərin əlaqəli şəkildə inkişafını təmin edir; maliyyə dayanıqlığı dayanıqlığın əsas parametri kimi çıxış edir; maliyyə dayanıqlığı dayanıqlığın digər parametrlərinin də təmin olunmasının əsasını təşkil edir; maliyyə dayanıqlığı fəaliyyət zamanı baş verə biləcək bütün risklərin aradan qaldırılmasına şərait yaradır; maliyyə dayanıqlığı sonda iqtisadi dinamikanın təmin olunmasını şərtləndirir və s. Qeyd edilən aspektlərinə görə müəssisələrdə dayanıqlıq və maliyyə dayanıqlığı çox yüksək əhəmiyyətə malikdir. Bu səbəbdən də bu məsələ həm dövlətin, həm beynəlxalq təşkilatların, həm də idarəçilərin diqqət mərkəzindədir.

2. Tədqiqat vasitəsi ilə əldə olunmuş nəticələr göstərir ki, ümumi iqtisadiyyatda olduğu kimi, müəssisələrdə də dayanıqlığın təmin olunması mövcud resurs bazasından səmərəli istifadə edilməsi ilə sıx bağlıdır. Bu amil həm müəssisənin səmərəli fəaliyyət göstərməsini, həm də mümkün risklərin səviyyəsinin minimallaşdırılmasını şərtləndirir. Mikro səviyyədə müəssisələrin dayanıqlığının təmin olunması ümumilikdə iqtisadiyyatın dayanıqlığının təmin olunmasına şərait yaradır. Liberal bazar şəraitində müəssisələr iqtisadiyyatın aparıcı qüvvəsi olması səbəbindən onlarda dayanıqlığın təmin olunması zəruri şərtə çevrilir. Bu şərti təmin etmək üçün müəssisələr özlərinin daxili qaydalarını, taktika və strategiyalarını formalaşdırmaq vasitəsi ilə bazarda öz dayanıqlıqlarını qorumaq istiqamətində fəaliyyət göstərirlər. Qeyd edilən istiqamətdə müəssisələrin fəaliyyət göstərərək öz dayanıqlıqlarını qoruması geniş mənada iqtisadiyyatda dayanıqlığın təmin olunmasını reallaşdırır. Bu istiqamətdə müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılması, eləcə də yarana biləcək risklərdən onların qorunması üçün dövlət də öz zəruri müdaxilələrini həyata keçirir. Zərurət yarandıqda, xüsusən də böhran dövründə dövlət müəssisələrə birbaşa maliyyə yardımı göstərərək onların dayanıqlığının qorunmasına şərait yaradır. Bu vasitə ilə dövlət iqtisadiyyatda yaranan bu və ya digər mənfi meylin qarşısını alaraq onun yayılmasına imkan vermir. Bu yolla həm müəssisələri, həm də iqtisadiyyatı böhranın yayılma təsirindən qoruyur. İqtisadiyyatda baş verə biləcək xarici mənfi təsirlər müəssisələrin fəaliyyətində yaranaraq onların dayanıqlığına təsir edə bilir. Müəssisələrin əsas

məqsədi də dayanıqlığı təmin etməklə həmin təsirlərdən yayınmaqdır. Belə hallarla rastlaşmamaq üçün müəssisələr riskləri düzgün proqnozlaşdırmaqla, onların qarşısını vaxtında almaq üçün zəruri tədbirlər görməlidirlər.

3. Araşdırmalar göstərir ki, qida məhsulları istehsal edən müəssisələrdə dayanıqlığın mahiyyətinin dərindən və düzgün dərk olunması, eləcə də onların iqtisadiyyatdakı rolunun düzgün başa düşülməsi üçün bu məsələnin ayrı-ayrı parametrlərinə müxtəlif alim və tədqiqatçıların yanaşmalarındakı münasibətləri araşdırmaq lazımdır. Ayrı-ayrı tədqiqat və iqtisadi ədəbiyyatlarda formalaşan mövqelərdən biri ondan ibarətdir ki, hər bir müəssisənin əsas funksiyası istehsalı öz fəaliyyəti ilə üzvi surətdə əlaqələndirməklə həm öz məqsədlərinin yerinə yetirilməsini, həm də cəmiyyət qarşısında öz öhdəliklərini yerinə yetirməkdən ibarətdir. Belə ki, müəssisənin fəaliyyəti və istehsal prosesi bir vəhdət şəklində geniş təkrar istehsalın elementi kimi mövcud olaraq cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan demək olar ki, müəssisələrin sabit, dayanıqlı inkişaf etməsi bütövlükdə ölkə iqtisadiyyatında vəziyyətin yaxşılaşdırılması amili kimi çıxış edir. Bəzən müxtəlif ədəbiyyatlarda və tədqiqatlarda rast gəlinən mövqelərə əsasən müəssisənin dayanıqlığı onun likvidliyi ilə, bəzən etibarlığı ilə, bəzən sabitliyi ilə, bəzi hallarda isə tarazlığı ilə eyniləşdirilir. Lakin bəzi mənbələrdə rast gəlinən yanaşmalara görə müəssisənin maliyyə dayanıqlığı onun etibarlığından daha vacib, daha irəlidir. Praktikada bəzən elə hallara rast gəlinir ki, müəssisə etibarlı olduğu halda dayanıqlı ola bilmir. Müəssisənin etibarlı olması onun öz kontragentləri qarşısında müqavilə öhdəliklərini vaxtında və keyfiyyətlə ödəməsi deməkdir. Bunun üçün isə müəssisə maliyyə cəhətdən etibarlı olmalıdır. Buradan vəziyyətlə bağlı belə bir nəticə əldə etmək olar ki, müəssisənin maliyyə dayanıqlığı daha geniş anlayış olmaqla özündə etibarlıqla müqayisədə daha çox parametrləri əks etdirir.

4. Tərəfimizdən qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin qabaqcıl dünya təcrübəsi bir sıra ölkələrin, o cümlədən Kanadanın, Hollandiyanın, Türkiyənin və Rusiyanın timsalında öyrənilmişdir. Dünya təcrübəsi göstərir ki, bəzən ölkələrdə makro səviyyədə dayanıqlığın təmin olunmasına baxmayaraq bu və ya

digər səbəblərdən ayrı-ayrı müəssisələrdə dayanıqlıq təmin edilə bilmir. Belə hallarda hökumətlər iqtisadiyyatda dayanıqlığı şübhə altında qoymamaq üçün müxtəlif vasitələrə əl atırlar. 2014-2015-ci il böhranının və eləcə də qlobal pandemiyanın təsirindən zərər çəkən müəssisələrə kömək göstərmək məqsədilə ölkələrdə onlara maliyyə yardımlarının göstərilməsi meylləri mövcud olmuşdur. Müəssisələrə yardım məqsədilə verilən vəsaitlərdən istifadə edilərək dayanıqlığın təmin olunması həmin vəsaitlərdən nə dərəcədə səmərəli istifadə olunmasından asılı olur. Məhz bu məqsədlə vəsait alan müəssisələr həmin vəsaitlərdən istifadə üzrə özlərinin taktika və strategiyalarını hazırlayırlar. Bir qayda olaraq həmin strategiyalar bir-birindən fərqlənirlər. Bu fərqliliyi yaradan səbəblər isə həmin müəssisələrin iştirakçısı olduğu bazarlarda mövcud olan fərqlərdir. Bu fərqləri yaradan səbəblər içərisində əsas amillərə həmin bazarlara uyğun olaraq maliyyə vəsaitlərinin gəlir gətirmə səviyyəsi, müəssisənin özünün reytinqi, onun rəqabətqabiliyyəti və s. aid edilə bilər. Təcrübəsi öyrənilən hər bir ölkənin qida sənayesi müəssisələrində dayanıqlığı təmin etmək istiqamətində apardığı məqsədyönlü fəaliyyət iqtisadiyyatda müsbət meyllər yaradır ki, onların hər birinin ölkəmizin qida sənayesi müəssisələrində tətbiq olunması məqsədəuyğundur. Həmin istiqamətlərə aşağıdakılar aiddir: müəssisələrdə kifayət dərəcədə, optimal səviyyədə kapital bazasının formalaşdırılması; düzgün strateji planlaşdırma; gəlirlərin diversifikasiyası; sağlam, şəffaf idarəçiliyin tətbiqi; müasir texnologiyalardan səmərəli istifadə; maliyyə dayanıqlığının təmin olunması və təkmilləşdirilməsinin optimal variantlarının tətbiqi və s.

5. Apardığımız tədqiqat vasitəsi ilə müəyyən olunmuşdur ki, ölkəmizdə dayanıqlı və davamlı inkişafın təmin olunması məqsədi ilə çoxsaylı və çoxşaxəli tədbirlər reallaşdırılır. Bu tədbirlərin reallaşdırılmasında əsas məqsəd müasir dövrün qlobal çağırışlarının tələblərinin yerinə yetirilməsindən ibarətdir. Həmin çağırışlar aşağıdakılardan ibarətdir: iqtisadiyyata, xüsusən də qida məhsulları istehsal edən sahələrə güzəştli şərtlərlə investisiyaların cəlb edilməsi; azad rəqabət mühitinin təmin edilməsi; biznes mühitinin beynəlxalq standartlara uyğun formalaşdırılması; yeni daha mütəşəkkil bazarlara çıxışın asanlaşdırılması; sahədə insan kapitalından istifadənin

yaxşılaşdırılması; sahənin keyfiyyətcə yeni səviyyələrə qaldırılması; sahədə sahibkarlıq müəssisələrinin daha da inkişaf etdirilməsinə uyğun şəraitin yaradılması; sahibkarlıq subyektlərinin fəaliyyətinin məhsuldarlıq nəticələrinin əsaslı şəkildə artırılmasına nail olunması və s. Həmin çağırışların icra olunması üçün zəruri olan fəaliyyətin təminatı üçün lazım olan makro-iqtisadi göstəricilər tərəfimizdən geniş təhlil edilmiş və bu istiqamətdə zəruri təkliflər irəli sürülmüşdür. Həmin təkliflərə aşağıdakılar aiddir: qida sənayesi müəssisələrində aktivlərə əsaslanan kreditlərin verilməsi; qiymətli kağızlar üzrə maliyyələşmənin artırılması; səmərəli maliyyə strategiyasının işlənməsi və həyata keçirilməsi; maliyyə hesabatlığının gücləndirilməsi; bazarın digər iştirakçıları ilə əməkdaşlığın genişləndirilməsi; idarəetmənin təkmilləşdirilməsi; sağlam rəqabət mühitinin formalaşdırılması və s.

6. Tərəfimizdən aparılan təhlil və araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, müəssisənin dayanıqlığının təmin olunması çoxsaylı göstəricilərdən asılı olaraq formalaşır. Həmin göstəricilər müəssisədə birbaşa istehsal prosesi ilə bağlı olaraq zəruri mühiti formalaşdırır. Həmin göstəricilərə məhsul istehsalının səviyyəsi, satışın səviyyəsi, mənfəətin dinamikası, gəlirin artım səviyyəsi, vergi səviyyəsi, müəssisədə işçi sayının dinamikası, müəssisənin əsas fondlarla silahlanma səviyyəsi, müəssisənin əsas kapitalının səviyyəsi, investisiya qoyuluşlarının dinamikası, hazır məhsulun səviyyəsi, müəssisədə xərclərin strukturu və s. aiddir. Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq tədqiqatın obyekti olan müəssisələrdə (o cümlədən Azərsun Holdinq MMC, Azərbaycan Şəkər İstehsalı Birliyi MMC, Bakı Qida və Yağ Fabriki MMC, Qafqaz Konserv MMC, Sun-Tea Çay Fabriki MMC, Azərbaycan Kənd Təsərrüfatı Məhsulları MMC-də) 2020-2024-cü illəri əhatə edən dövr ərzində onların fəaliyyətini xarakterizə edən əsas göstəricilər tərəfimizdən geniş təhlil edilmiş və təkmilləşmələr istiqamətində təkliflər irəli sürülmüşdür.

7. Apardığımız araşdırma vasitəsi ilə sübut olunmuşdur ki, qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin olunması ölkədə aparılan ümumi iqtisadi siyasətin prioritet istiqamətidir. Məlum olduğu kimi ölkəmiz Dayanıqlı İnkişaf Konsepsiyasına qoşularaq bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. 6 oktyabr 2016-cı

il tarixdə ölkə Prezidenti İlham Əliyevin Fərmanına əsasən "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası" yaradılmışdır. Bu Şuranın fəaliyyəti və onun nəzarəti altında ölkəmizdə reallaşdırılan tədbirlərin nəticələrinə uyğun olaraq qida sənayesi müəssisələrində görülən fəaliyyətlər təhlil olunmuş, fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər verilmişdir.

8. Tərəfimizdən aparılan araşdırmalar vasitəsi ilə müəyyən olunmuşdur ki, uzun illər boyu iqtisadi ədəbiyyat və tədqiqatlarda müəssisənin dayanıqlığı haqqında araşdırmalar aparılarkən söhbət əsasən maliyyə dayanıqlığından getmişdir. Belə yanaşmaya səbəb ondan ibarət olmuşdur ki, müəssisə maliyyə cəhətdən dayanıqlı olduğu halda öz fəaliyyətini bütün parametrlər üzrə təmin edə bilər. Yəni müəssisə zəruri səviyyədə kapital bazası cəlb edərək, öz funksiyalarını yerinə yetirərək gəlirli işlədiyi halda davamlı inkişafı təmin edə bilir. Bu istiqamətdə formalaşan fikrin əsasında müəssisənin ancaq gəlir əldə etməsi dayanır. Müəssisələrin fəaliyyətinin genişləndirilməsi, sənaye inqilabından sonra onların fəaliyyətlərində yaranan yeni meyllərin yaratdığı zərurət, bazarda artan rəqabətə dözümlülük göstərmək tələbi müəssisələrin fəaliyyətinin məqsədlərinə yeni istiqamətləri əlavə etmək ehtiyacını yaratdı. Fikrimizcə, həmin istiqamətlərə korporativ dayanıqlığın təmin olunması, təkmilləşdirilməsi, korporativ sosial məsuliyyətin gücləndirilməsi, korporativ hesabatlığın gücləndirilməsi, maraqlı tərəflər nəzəriyyəsinin tələblərinin reallaşdırılması və s. aiddir. Aparılan tədqiqat göstərmişdir ki, qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsi yalnız ayrı-ayrı müəssisə səviyyəsində tədbirlərlə deyil, sistemli və çoxsəviyyəli institusional yanaşma ilə mümkün olur. Resursların optimallaşdırılması, innovativ texnologiyaların tətbiqi, dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi və ekoloji yanaşmanın inteqrasiyası Azərbaycan qida sənayesində dayanıqlı inkişafın əsas təminatçısı kimi çıxış edir.

Təklif olunan mexanizmlərin mərhələli şəkildə həyata keçirilməsi nəticəsində sektorun rəqabətqabiliyyətliliyinin artması, maliyyə dayanıqlığının möhkəmlənməsi və uzunmüddətli iqtisadi səmərəliliyin təmin olunması gözlənilir.

Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Abdullazadə, Ə.R. Qida sənayesi müəssisələrində dayanıqlığın yüksəldilməsi amilləri. // – Bakı: Qərbi Kaspi Universitetinin Elmi xəbərləri, ictimai və texniki elmlər seriyası, 2025. № 1(15), – s. 501-508.
2. Abdullazadə, Ə.R., Bağırov, M.M. Qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyinin səviyyəsinin müəyyən edən mühitin təhlili // – Bakı: Qərbi Kaspi Universitetinin Elmi Xəbərləri. ictimai və texniki elmlər seriyası, 2025. №1 (15). – s.15-22
3. Abdullazadə, Ə.R. Müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsinin nəzəri məsələləri. // – Bakı: "Kooperasiya" elmi praktiki jurnalı, 2025. № 2(77), – s. 114-122.
4. Abdullazadə, Ə.R., Bağırov, M.M. Qida sənayesi müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin dünya təcrübəsi. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnalı, 2025. № 2(77), – s. 96-103.
5. Abdullazadə, Ə.R. Qida sənayesinin davamlılığının iqtisadi inkişafa təsiri istiqamətləri // Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri mövzusunda beynəlxalq elmi-praktik konfrans – Gəncə: 2025, – s.64-66.
6. Abdullazadə, Ə.R. Müəssisələrdə dayanıqlı inkişafın təmin edilməsinin müasir meylləri // "Dayanıqlı, inklüziv və sosial siyasətin konseptual əsasları" mövzusunda beynəlxalq elmi konfrans, – Bakı: 2025, – s. 379-383
7. Абдуллазаде, А.Р. Направления обеспечения устойчивого развития предприятий пищевой промышленности. // – Москва: Научный журнал "Конкурентно способность в глобальном мире: экономика, наука, технология", 2025. № 3 (част 2), – стр. 108-112.
8. Абдуллазаде, А.Р. – Конкурентоспособность как основа устойчивого развития предприятия. // Сборник научных статей международной научно-практической конференции. – Толятти, 18, 2025 года, – стр. 22-27.



Dissertasiyanın müdafiəsi 11 noyabr 2026-cı il tarixdə, saat 14^{00}-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.10.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 41692 işarə

Tiraj: 100